# Akademik İsa Həbibbəyli AMEA-nın prezidenti seçilib

**Oktyabrın 25-də Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağı keçirilib.**

AMEA-nın prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov yığıncağın gündəliyindəki məsələləri diqqətə çatdırıb. İlk məsələ Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnamə layihəsinin təsdiq edilməsi haqqında olub. AMEA-nın vitse-prezidenti, Nizamnamə Komissiyasının sədri, akademik İsa Həbibbəyli çıxış edərək AMEA-nın yeni Nizamnamə layihəsini təqdim edib.

Açıq səsvermənin nəticələrinə əsasən, AMEA-nın yeni Nizamnamə layihəsi təsdiq edilib. Akademik Arif Həşimov Ümumi yığıncağın gündəliyindəki növbəti məsələnin AMEA-nın prezidenti vəzifəsinə seçkinin keçirilməsi olduğunu bildirib və bu vəzifəyə akademik İsa Həbibbəylinin namizədliyini təklif edib.

AMEA-nın prezidenti vəzifəsinə gizli səsvermə yolu ilə seçki keçirilib. Səsvermənin nəticəsinə əsasən, akademik İsa Həbibbəyli




yekdilliklə AMEA-nın yeni prezidenti seçilib.

**Redaksiyamızın kollektivi akademik İsa Həbibbəylini AMEA prezidenti seçilməsi münasibətilə təbrik edir, mediamızın dostuna yeni vəzifənin icrasında uğurlar arzulayır.**

***"Xalq qəzeti"***